*Həsənzadə Tahirə.Bakı neftçiləri müharibə illərində*
*// Elmi əsərlər,2020,1(10),yanvar-iyun, s.73-77.*

# TARİX

UOT 94(479.24)

**Tahirə Nəsənzadə,**
*tarix üzrə elmlər doktoru,*
*AMEA-nın Məhəmməd Fizuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç.26.*

## BAKI NEFTÇİLƏRİ MÜHARİBƏ İLLƏRİNDƏ

**Açar sözlər:***İkinci Dünya müharibəsi, Bakı nefti, ziyalılar, arxa cəbhə*

Məlum olduğu kimi, 1939-cu il Sentyabr ayının 1-də başlanan, 2 Sentyabr 1945-ci ildə bitən II Dünya müharibəsində dünya əhalisinin 75 faizi iştirak etmişdir. Çoxlu sayda insan həyatına son qoymuş bu müharibədə o vaxt SSRİ-nin tərkibində olan Azərbaycan xalqının da mərd oğulları şəhid olmuş, yaralanmış və itgin düşmüşlər. Azərbaycan ərazisində elə bir ocaq tapılmaz ki, bu müharibə orada iz qoymamış olsun. Ona görə hal-hazırda müharibə şəraitində yaşayan Azərbaycan xalqı hər il II Dünya müharibəsi şəhidlərini dərin hüznlə anır, bu müharibənin az sayda qalmış veteranlarına hörmət və ehtiram göstərir.

2020-ci ilin 9 May tarixində müharibənin qələbə ilə bitməsinin 75 ili tamam olur. Biz 75 ildir ki, Vətən ovladının canı vı qanı bahasına qazanılan qələbəmizi bayram edirik. Müharibənin acılarını yaşayan həmyerlilərimizin bir qismi arxa cəbhədə fədakarlıq göstərir, neft hasilatını artırmaq üçün yeni neft yataqları kəşf edir, istismara verirdilər. İş günü 12 saata qaldırılmışdı. Bakının neft rayonları olan Ramana, Zabrat, Suraxanı, Binəqədi, Sabuncu, Buzovna, Balaxanı qəsəbə və kəndlərində fədakarlıq göstərən neftçilərin adları tarix sahifələrində yaşayır.

Mənbələr göstərir ki, 1901-ci ildə Rusiya imperiyasında hasil edilən neftin 95,1 faizi Bakı nefti idi. (3, şək.7) Müharibə illərində Bakı ölkə neftinin 75 faizini, benzinin 85 faizini verirdi. Müharibənin ən çətin vaxtında Bakı neftçiləri ordunu və ölkənin xalq təsərrufatını yanacaqla fasiləsiz təchiz edir, bütün sovet neftinin ¾ hissəsini verirdilər. (1, II, 286) Bakıda akademik Yusif Məmmədəliyevin rəhbərliyi ilə aviasiya benzini istehsalının yeni texnologiyası hazırlandı ki, bu da müharibə illərində aviasiyanı yüksək oktanlı yanacaqla təmin etmişdir. (1, VI, 496)

II Dünya müharibəsinin qələbə ilə başa çatmasının 75 illiyini qeyd etdiyimiz bu günlərdə Bakı neftçilərindən, o cümlədən Bakının Ramana kəndində anadan olmuş və müharibə illərində İttifaq miqyasında öz neftçi əməyi ilə tanınmış, qələbənin tezləşdirilməsində xüsusi əməyi olmuş bir neçə həmyerlimizi xatırlamaq yerinə düşərdi. Qeyd etmək lazımdır ki, Ramana kəndi hündür ərazidə yerləşmişdir. Qərb tərəfdən kəndin giriş qapısı olan, sağda qaya üzərində inşa edilən tarixi Ramana qalası XVII əsrə aid edilsə də, inşaat texnikasına görə XIV əsrin yadigarıdır. Bu kiçik kəndin sakinləri kəndin neçə-neçə adlı-sanlı ziyalıları, böyük şəxsiyyətləri ilə fəxr edirlər. Azərbaycan SSP EA müxbir üzvləri; geologiya-mineralogiya elmləri doktoru Baba Babazadə, texnika elmləri doktoru Sabit Orucov, geologiya-mineralogiya elmləri doktoru Ə. Əlixanov, ixtiraçı neftçi-mühəndis Dadaş Məmmədzadə, M.Isgəndərov, yazıcı Süleyman Vəliyev, Azərbaycan musiqisi tarixində şərəfli yer tutmuş Mənsurovlar ailəsi bu kəndin övladlarıdır. Bura Azərbaycan SSR Xalq artisti, SSRİ və Azərbaycan SSR Dövlət mükafatları laureatı, Leyla xanım Bədirbəylinin tez-tez qonaq olduğu kənddir. Kino tariximizdə şah əsər olaraq qalmış “Koroglu” filmi Ramana qalasında çəkilmişdir.

Baba Babazadə 1911-ci ildə Ramana kəndində anadan olmuşdur SSRİ Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı (1944) kimi yüksək adlar almışdır. Azərbaycan SSR EA müxbir üzvü idi. (1959). “Azərneft Birliyi” nin Baş geoloqu vəzifəsində olarkən, onun rəhbərliyi ilə bir sıra yeni neft yataqları, o cümlədən Buzovna-Maştağa, Zirə, Qaradağ, Qum Adası və digər

yataqlar kəşf olunmuşdur. Baba Babazadənin müharibə illərində göstərdiyi bu xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmiş, Lenin ordeni, üç Qırmızı Əmək bayrağı ordeni və medallarla təltif olunmuşdur. Əsərlərində Abşeronda yeni yataqların kəşf edilməsi məsələlərindən bəhs edilir. Qeyd etmək lazımdır ki, həmyerlisi, yazıcı Süleyman Vəliyev əsərlərində görkəmli neftçidən bəhs etmişdir. Xəzər dənizində onun adına "Baba Babazadə" gəmisi üzür. B. Babazadə 1962-ci ildə, 51 yaşında Bakıda vəfat etmişdir (1, I, 518).

Orucov Sabit Atababa oğlu 31 May 1912-ci ildə Bakıda anadan olmuşdur. Neft və Qaz sənayesi üzrə yüksək ixtisaslı mütəxəssis, teknika elmləri doktoru, professor, Azərbaycan SSR EA muxbir üzvü, Orucov 1936-ci ildə Azərbaycan SSR Sənaye İnstitutunu (indiki Neft Akademiyasını) bitirdikdən sonra, müharibə illərində Bakının neft mədənlərində mühəndis, daha sonra rəhbər vəzifılərdə çalışmışdır. Həmin vaxtlar Sabit Orucov "Suraxanıneft" trestinin rəisi vəzifəsində işləmişdir (3, s.45). Müharibədən sonra müxtəlif vaxtlarda rəhbər vəzifələrdə, o cümlədən, SSRI Neft Sənayesi nazirinin müavini (1949-53, 1955-57) vəzifısində olmuş, Azərbaycan SSR Xalq Təsərrufatı Şurasının sədri və Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini, və digər rəhbər vəzifələrdə çalışmışdır. S. Orucov 1967-ci ildə Azərbaycan SSR EA-nın müxbir üzvü seçilmiş, Sosialist Əməyi Qəhrəmanı, Lenin mükafatı və SSRİ Dövlət mükafatı laureatı, Azərbaycan SSR Əməkdar elm və texnika xadimi adlarına layiq görülmüşdür. S. Orucov 1972-ci ildən ömrünün sonunadək SSRI Qaz Sənayesi naziri vəzifəsində işləmişdir. Neft Daşlarındakı yataqların kəşfi və istismarında bilavasitə iştirak etmiş, çoxlu sayda ixtiraların müəllifidir. Qərbi Sibir, Orenburq vilayəti, Türkmənistan və Özbəkistanda bir sıra neft və qaz yataqlarının kəşfi və istismarında onun əməyi olmuşdur.

Sabit Orucov 1981-ci ilin 20 Aprelində 69 yaşında Moskvada vəfat etmişdir. (1, VII, 381)

Müharibə illərində neft sənayesinin inkişafında öz səmərəli işi ilə hasilatın artmasında əməyi olan Süleyman Vəzirov, Ağa Nemətulla kimi adlı-saylı nefçi-mütəxəssislər də fəaliyyət göstərmişlər.

Süleyman Azad oğlu Vəzirov 1910-cu ildə Bakıda anadan olmuşdur. 1932-ci ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdir. Müharibə illərində neft mədənlərində əvvəl mühəndis, bir qədər sonra rəhbər vəzifələrdə çalışmış, 1944-cü ildə yenilikçi, səmərəli fəaliyyətinə görə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

Süleyman Vəzirov Dövlət mükafatı laureatı, Əməkdar Elm və Texnika xadimi kimi yüksək adlar almış, dövlət vəzifələrində, o cümlədən Azərbaycan SSR Neftçıxarma naziri kimi çalışmışdır. O, 4 dəfə Lenin ordeni, 6 Qırmızı Əmək Bayrağı Ordeni ve medallarla təltif edilmişdir. S. Vəzirov 1973-ci ildə Bakıda vəfat etmişdir (1, II, 459).

Müharibənin gedişində cəbhəni yanacaqla təmin etmək üçün neft mədənlərində fədakarlıq nümunəsi olan, Bakı neftçiləri arasında şərəfli adı ilə tanınan Ağa Nemətulla unudulmaz şəxsiyyətlərdəndir. O, 1896-ci ildə, Cənubi Azərbaycanın Sərab şəhərində anadan olmuşdur. Ağa Nemətulla 1915-ci ildən Bakının Ramana neft mədənlərində işləməyə başlamış, 36 yaşında artiq qazma ustası kimi tanınmışdır. Neft sənayəsi tarixində, neft-qaz çıxarılması işlərində ilk dəfə olaraq, 1941-ci ildə qazma turbini ilə qazılmış ilk maili quyu, buruq ustası Ağa Nemətullanın adi ilə bağlıdır. O, bu quyunu Bibi-Heybətdə qazmışdır. (7, 48). Ağa Nemətulla 1942-43-cü illərdə Özbəkistanda neft quyuları qazılmasında iştirak etmişdir. 2 dəfə Lenin ordeni və digər orden, medallarla təltif edilmiş Ağa Nemətulla 1958-ci ildə Bakıda dünyasını dəyişmişdir.

Məmmədov Mirkazım Mirəhəd oğlu 1911-ci ildə Bakının Ramana kəndində anadan olmuşdur. Geologiya-mineralogiya elmləri namizədi idi. Müharibə illərində Azərbaycanda neft yataqlarının aşkar edilməsi və istismarı ilə məşğul olmuşdur. Lenin mükafatı laureatı, Azərbaycan SSR Əməkdar mühəndisi, SSRI-nin fəxri neftçisi adına layig görülmüşdür. Sonralar Azərbaycan Neft Sənayəsi nazirliyinin Baş Geologiya İdarəsində baş geoloq müavini, Azərneft Birliyində rəhbər vəzifələrdə işləmişdir. Neft yataqlarının kompleks mənimsənilməsi üsullarını

tədqiq etmiş, ömrünün son illərində Azərbaycan Dövlət Neft sənayəsi Elmi-Tədqiqat və Layihə İnstitutunda böyük elmi işçi kimi çalışmişdır. (1, VI, 502).

Yaşlı nəslin xatirində Azərbaycan SSR Nazirlər Sovetinin sədri kimi qalmış Əlixanov Ənvər Nəzər oğlu Azərbaycanın Neft və Qaz yataqlarının öyrənilməsi sahəsinin görkəmli mütəxəssisi, geologiya-mineralogiya elmləri doktorudur. O, 1917-ci ildə Bakıda anadan olmuşdur. Əlixanov müharibə illərində arxa cəbhədə fədakarlıqla calışmış, Azərbaycanın neft sənayesində rəhbər vəzifələrdə olmuşdur. Lenin mükafatı laureatı, Azərbaycan KP MK katibi, 1961-70-ci illərdə Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifəsində işləmişdir. O bir müddət Azərbaycan SSR Qubkin adına Geologiya İnstitutunun direktoru vəzifəsində olmuş, 1976-cı ildən ömrünün sonunadək Geofizika Elmi Mərkəzinin tərkibində olan Azərbaycan SSR EA Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutunda dəniz geologiyası laboratoriyasının müdiri vəzifəsində çalışmışdır. Əlixanov 2 dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif edilmişdir (1, IV, 183).

Bakının zəngin neft rayonlarından olan Suraxanı rayonu 2004-cü ildə burada neft yataqlarının ilk istismarının 100 illiyini qeyd etmişdir. Bu münasibətlə neftçi, texnika elmləri namizədi Yusif Vahab oğlu Sadıxovun "Suraxanı: Biz əsr xalqın xidmərində" adlı kitabı nəşr olundu. Kitab ülü öndər Heydər Əliyevin bu sözləri ilə başlayır: "Suraxanı neftçiləri və bütün suraxanılılar Azərbaycan tarixində özünə məxsus yer tutmuşdır." Kitabda Suraxanı neft rayonunun inkişaf tarixindən, Böyük Vətən müharibəsi illərində neftçilərin burada göstərdikləri fədakarlıqlardan bəhs olunur.

Yubiley nəşrində görkəmli neftçilərdən Sabit Atababa oğlu Orucovun (1939-1949), Məmməd Əbdul oğlu İsgəndərovun (1949-1951), Ələkbər Bagır oğlu Suleymanovun (1953-1959) və başqalarının "Suraxanıneft" trestinin rəhbərləri olduqları barədə də məlumat verilmişdir. Kitabda Suraxanı rayonunun müharibə illərində neft hasılatında geridə qalan mədənlərinin qabaqcıllar sırasına çıxarılmasında ixtiraçı-mühəndis Dadaş Məmmədzadənin də xidmətlərindən bəhs olunur.

Məmmədzadə Dadaş 1907-ci ildə Bakının Ramana kəndində, neftçi ailəsində anadan olmuşdur. O, 15 yaşından neft mədənlərində işləməyə başlamış, Nəriman Nərimanov adına sənayə texnikumunu bitirdikdən sonra M. Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun (indiki Neft Akademiyası) neft-mədən fakultəsinə daxil olmuş, oranı 1936-cı ildə bitirmişdir. Yüksək təşkilatçılıq qabiliyyətinə malik olan mühəndis tez-tez ən çətin sahələrə göndərilirdi. Odur ki, Azerneft Birliyinin əməkdaşı olan Dadaş Məmmədzadə müharibə illərində geridə qalan, dövlət plan tapşırıqlarını çox vaxt yerinə yetirə bilməyən "Siyəzənneft" trestinə rəis vəzifəsinə göndərilir. Bu mədənlərdə işləri qaydaya saldıqdan, neft hasilatı yüksəldikdən sonra o, digər geridə qalan trestə-"Kaqanoviçneft" (Qaraçuxur) trestinin 6-cı mədəninə müdir təyin olunur.

Dadaş Məmmədzadə müharibədən sonra, eyni vaxtda "Orcenikidzeneft" (Suraxanıneft) trestinin 3-cü, 5-ci, 6-cı və 7-ci mədənlərində müdir vəzifəsində işləmişdir. O bu mədənləri neft hasilatına görə qabaqcıl mədənlər sırasına cıxartmaq üçün yeni usullardan istifadə etmişdir. Onun bir sıra səmərəli təklifləri olmuş və tətbiq edilmişdir.

1955-ci ildə Suraxanı rayonunda 9-cu mədən ağır vəziyyətdə olarkən, Dadaş Məmmədzadə həmin mədənə müdir təyin olunmuş, artıq 1958-ci ildə həmin mədən qabaqcıllar sırasına çıxmışdır. O, neft sənayəsində göstərdiyi xidmətlərinə görə o vaxt ən yüksək mukafat olan "Lenin ordeni", "Qırmızı Əmək Bayrağı" ordeni və bir sıra medallarla təltif olunmuşdur. Qeyd etmək lazımdır ki, ordeni Bakı neftçilərinə M.İ. Kalinin Bakı şəhərinə gələrək təqdim etmişdir. Fərdi təqaüdçü Dadaş Məmmədzadə 1980-cı ildə vəfat etmişdir (3, 67).

Müharibə illərində Bakı və ətrafında neft və qaz yataqlarının işlənməsi sahəsində Süleymanov Ələkbər Bağır oğlunun xidmətləri böyükdür. Texnika elmləri doktoru, professor Süleymanov 1916-cı ildə Qafan rayonunun Qatar kəndində anadan olmuşdur. O, Əməkdar neft

ustası (1941) və Əməkdar elm və texnika xadimi (1954) adlarına layiq görülmüş azsaylı neftçilərdən idi. Keçmiş SSRİ-nin fəxri neftçisi, üç dəfə SSRİ Dövlət mükafatı laureatı və bir sıra digər yüksək titulları olan Süleymanov həm dənizdə, həm də quruda neft yataqlarının öyrənilməsində bir çox yeni layihənin müəllifidir. Əsərləri yeni yataqların aşkar edilməsi istiqamətində dəyərli mənbələrdir. Süleymanov 1953-cu ildə Qubkin adına Moskva Neft İnstitutunu, eyni zamanda SSRİ Neft Sənayesi Akademiyasını bitirmişdir. Suraxanı neft-qaz çıxarılması idarəsinin rərbəri (1953-59), Azərneft Birliyinin Baş mühəndisi (1959-65) vəzifələrində çalışmışdır. Daha sonra Azərbaycan SSR Neftçıxarma Sənayəsi nazirinin birinci müavini, 1972-80-cı illərdə isə Ümumittifaq "Xəzərdənizneftqaz" sənayə birliyinin rəisi vəzifələrində olmuşdur. O, 1980-cı ildən həyatının sonuna kimi "Dənizlayihəneftqaz" Elmi-Tədqiqat İnstitutunda direktor müavini olmuşdur. Süleymanov Ələkbər Bağır oğlu 2000-cı il 27 iyulda vəfat etmişdir. (1, IX, 100)

II Dünya müharibəsinin acılarını yaşamış, uzun illər doğma vətənindən ayrı düşmüş ziyalılarımızdan biri yazıçı Süleyman Vəliyevdir. O, 1916-cı ildə Bakının Ramanı kəndində anadan olmuşdur. Süleyman Vəliyev II Dünya müharibəsi cəbhələrində döyüşmüş, Italiya və Yugoslaviyada Müqavimət hərəkatında iştirak etmişdir. Özünün dediyinə görə, İtaliyada olarkən qəhrəman döyüşçü, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə ilə tanış olmuşdur. "Mübahisəli şəhər" romanını vətənə qayitdıqdan sonra yazmışdır. Roman Triyestin faşist işğalçılarından azad edilməsi uğrunda partizanların, o cümlədən azərbaycanlıların apardıqları mübarizəyə həsr olunmuşdur. Stalin repressiyasından əziyyət çəkmiş Süleyman Vəliyev 1976-cı ildə Azərbaycan SSR Əməkdar Mədəniyyət işçisi fəxri adını almışdır. Onun əsərləri bir sıra xarici dillərə tərcümə olunmuşdur (1, II, 463).

Müharibə illərində neftçi qadınlardan cəbhəyə gedən ərlərini, qardaşlarını həm ailədə, həm də iş yerində əvəz edənləri də olmuşdur. "Suraxanı" neft mədənlərində mühəndis və texniki işçi qadınlar müdir vəzifələrinə təyin edilirdilər (3, 49).

1941-45-ci illər II Dünya müharibəsində insanların həm ön cəbhədə, həm də arxa cəbhədə iştirakı, o cümlədən Azərbaycanda da ümumxalq hərəkatı xarakterini almışdı. Azərbaycan xalqı, o cümlədən bakılılar ön cəbhədə canlı qüvvə ilə, arxa cəbhədə neft hasilatını artırmaqla, hərbi texnikanı yanacaqla təmin etməklə, həm də müharibəni ədəbiyatda əks etdirməklə onun qələbə ilə başa çatmasına, faşist Almaniyasını tez bir zamanda susdurmağa müvəffəq oldular.

Müharibə illərində Bakı neftçiləri eyni zamanda Ural, Qazaxıstan və Orta Asiyada neft çıxarılmasında öz təcrübələrini tətbiq edirdilər. Əlbəttə, bu da düşmən üzərində qələbənin surətlənməsinə səbəb olmuşdur.

Yuxarıda xatırlanan "Suraxanıneft" trestinin rəisi Sabit Orucov Suraxanı neftçilərini Şərqə yola salarkən belə demişdir: "Yoldaş Suraxanı neftçiləri, Sizi Şərqə, yeni neft yataqlarının açılması üçün yola salarkən əminik ki siz Vətənin by şərəfli tapşırığını vicdanla yerinə yetirəcəksiniz, düşməni darmadağın etmək üçün daha çox neft hasil edəcəksiniz". (3, 46)

Həsənzadə Tahirə, t.e.d.

**Ədəbiyyat:**

1. Azərbaycan Sovet Ensiklopediyası. Bakı: ASE Baş Redaksiyası, 1976-1986. C.1, s.518, 542; C.2, s.286, 459, 463; C. 4, s.183; C. 6, s. 496, 502; C.7, s.381; C. 9, s.100.
2. Агарунов Я.М. Героические свершения азербайджанских нефтяников в годы Великой Отечественной Войны. Баку: Азгосиздат, 1982, 107 с.3.
3. Sadıxov Yusif Suraxanı: Bir əsr xalqın xidmətində. Bakı: 2004, 154 s.

***Тахира Гасанзаде***

**БАКИНСКИЕ НЕФТЯНИКИ В ВОЕННЫЕ ГОДЫ**

**Резюме**

Статья посвящена 75-й годовщине Второй мировой войны, отмечавшейся 9 мая 2020 года, и памяти отважных сынов азербайджанского народа, принимавших участие в этой войне, которые пали смертью храбрых, были ранены и пропали без вести. Отмечаются заслуги ученых-нефтяников и специалистов, которые способствовали победе, работа, проделанная ими в тылу по увеличению добычи бакинской нефти. В статье говорится о практическом опыте академика Юсифа Маммедалиева, Бабы Бабазаде, Сабита Оруджева, Дадаша Маммедзаде, Алекпера Сулейманова и других химиков, ученых-нефтяников, а также упоминается их напряженная работа по увеличению добычи нефти во время войны. В статье также представлена информация об общественных и культурных деятелях Баку в военные годы о писателе Сулеймане Валиеве и о семье Мансуровых.

**Ключевые слова**: *II Мировая война, бакинская нефть, интеллигенция, тыл*

***Tahira Hasanzadey***

**BAKU OİL WORKERS DURİNG THE WAR**

**Summary**

The article discusses the celebration of th 75 anniversary of II World War on 9 may , 2020 year and the brave sons of Aerbaijan who went missing and died in this war. It was discussed the work done by oil scientists and specialists who contributed to the victory and increased their self-sacrifice in order to increase oil production in Baku. The article mentions the work experience of academician Yusif Mammadaliyev, Baba Babazadeh, Sabit Orujov, Dadash Mammadzadeh, Alakbar Suleimanov and other chemist-oil scientists and their hard work to increase oil production. The article also provides information about the family of Suleiman Valiyevand Mansurovs' Baku public and cultural figures of the war years.

**Key words:** *Second world war, Baku oil, intelligents, rear front*

Redaksiyaya daxil olma tarixi: 11.03.2020
Çapa qəbul olunma tarixi: 17.06.2020

Filologiya üzrə elmlər doktoru, professsor **Paşa Kərimov**
tərəfindən çapa tövsiyə olunmuşdur.